# Respublika Günü hər bir azərbaycanlı üçün fəxarət və qürur tarixidir



**Xalqımızın şanlı tarixinə daxil olan 28 may 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması günüdür. Bu tarixdən 101 il keçir. Hər il Azərbaycan xalqı bu günü böyük sevinc hissi ilə əlamətdar hadisə kimi qeyd edir. Çünki Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir. Bu tarixi xalqımızın XX əsrdə milli oyanış və dirçəliş günü kimi də adlandırmaq olar. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.**

2018-ci ilin mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunan mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: **“Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır”.**

Azərbaycan Xalq Cümhuriyyəti xüsusən təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalıb. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərdən biri tədris müəssisələrinin milliləşdirilməsi oldu. 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti Dövlət Universitetinin təşkili haqqında qanun qəbul etdi və bununla milli təhsil ocağının əsası qoyulub. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil Azərbaycan Respublikasına verdiyi böyük töhfələrdən biri və bəlkə də ən əsası ondan ibarətdir ki, bütün Şərq, müsəlman aləmində ilk dəfə Azərbaycanda demokratik üsul-idarə prinsiplərinə əsaslanan dövlət, hökumət yaranmış, beləliklə də Azərbaycanda həm müstəqilliyin, həm də demokratiyanın, demokratik dövlət üsul-idarəsinin əsası qoyulmuşdur. Müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Müstəqillik haqqında Konstitusiya Aktı”nda qeyd olunur ki, 1920-ci ildə itirilmiş müstəqilliyimiz bərpa olunur. Xalq Cümhuriyyətinin siyasi varisi olmaqla Azərbaycan Respublikası onun bayrağını, gerbini, himnini qəbul etmiş, Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmişdir. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may tarixi hazırda Respublika Günü kimi qeyd olunur.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. AXC xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Məmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinski və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti xüsusən təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalmışdır. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərdən biri tədris müəssisələrinin milliləşdirilməsi oldu. 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti Dövlət Universitetinin təşkili haqqında qanun qəbul etdi və bununla milli təhsil ocağının əsası qoyuldu.

28 May - Respublika Günü harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı üçün fəxarət və qürur günüdür. Çünki 101 illik fasilədən sonra Azərbaycan xalqı özünün müstəqil dövlətçiliyini əldə etdi, taleyini özü həll etmək imkanını qazandı. Dövlət quruculuğuna başlanıldı, müstəqil dövlətin beynəlxalq aləmdə tanınması üçün ciddi fəaliyyət göstərildi. Ordu quruculuğuna başlanıldı ki, bu da erməni millətçilərinin tarixi Azərbaycan torpaqlarına iddialarının qarşısının alınmasına imkan verdi. Vətəndaşların maariflənməsi üçün ciddi addımlar atıldı. Amma çox təəssüflər olsun ki, həmin dövr Azərbaycan xalqı müstəqilliyə hazır olsa da, hələ zaman və şərait buna hazır deyildi. Yenidən Azərbaycan işğal olunub başqa bir dövlətin tərkibinə qatıldı. 1918-1920-ci illərin şərəfli tarixi bizə müstəqilliyimiz uğrunda mübarizə aparmaq üçün yeni bir qüvvə verdi. Bu isə 1991-ci ildə müstəqilliyimizin bərpasına gətirib çıxardı. Ancaq hakimiyyətdə olanların səriştəsizliyi müstəqilliyimizi çox böyük bir təhlükə altına qoydu. 1993-cü ilin 15 iyunda ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə bizim müstəqillik tarixi yenidən yazılmağa başladı. Xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq, müstəqil Azərbaycan dövləti yaradıldı.

Artıq 1993-cü ildən 26 il keçib ki, biz Azərbaycanın müstəqilliyini möhkəmləndiririk və hər bir vətəndaş bundan qurur hissi duyur. Şübhəsiz ki, indiki müstəqil Azərbaycan dövləti Azərbaycan Demokratik Respublikasının şərəfli davam edicisidir. Bizim müstəqilliyimiz əbədidir, dönməzdir və heç bir zaman müstəqilliyimizin yenidən itirilməsinə imkan verməyəcəyik.

Bu gün Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli və layiqli varisi kimi, 1918-1920-ci illərdə əsası qoyulmuş demokratik dövlət quruculuğu proseslərini sürətlə həyata keçirir və inkişaf etdirir. Müasir Azərbaycan Respublikası beynəlxalq birliyin etibarlı üzvü kimi qəbul olunmuş, dünyaya sürətli inteqrasiya yolunu uğurla keçmişdir. Hazırda əsası ulu öndər tərəfindən qoyulmuş milli inkişaf strategiyası yeni çalarlarla bu günümüzə tətbiq olunur.

Beləliklə, 28 May - Respublika Günü Azərbaycanın şərəf tarixidir. Yəni 1918-ci ildə müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür. 101 il bundan əvvəl, bizdən öncəki insanlar Şərqdə ilk demokratik cümhuriyyəti qurmaqla Azərbaycan tarixinə çox fərqli bir məqamı yazmış oldular. Azərbaycan xalqı daim həmin günlə fəxr edərək qürur duyur. Azərbaycan dövlətinin müstəqilliyinin əsasının, məhz 1918-ci ildə qoyulduğunun xüsusi olaraq, respublika idarəetmə üsulunun o gün tətbiq olunması ilə bağlı məqamlar bizim üçün müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı ilə Azərbaycanın ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsl dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun dövlət quruculuğu prosesi başlandı. Uzaqgörən liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin mayında həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu. Prezident cənab İlham Əliyev demişdir: “Biz güclü ordu yaratmışıq. 1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi. Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir. Biz güclü iqtisadiyyat yaratmışıq. Biz təbii resurslarımızdan çox böyük səmərə ilə istifadə etmişik və iqtisadi müstəqillik siyasi müstəqilliyimizin əsas amilidir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Güclü iqtisadi əsaslar gələcəkdə də imkan verəcək ki, Azərbaycan heç kimdən asılı olmayaraq uğurla inkişaf etsin”.

Məlumdur ki, müasir dövrümüzdə orduya qayğı xüsusilə artır və ildən-ilə diqqət gücləndirilir. Azərbaycanda güclü, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ölkəmizə rəhbərliyinin birinci dövründə milli hərbi kadrların hazırlanması məqsədilə həyata keçirdiyi tədbirlər və bunun tərkib hissəsi kimi Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması mühüm tarixi əhəmiyyətə malikdir. İmperiya tərkibində azərbaycanlı gənclərin hərb elminə marağının artırılması və bunun üçün real şəraitin yaradılması Azərbaycanın ikinci dəfə müstəqilliyi yolunda atılan qətiyyətli və uğurlu addımlardan idi. O dövrdə dahi liderin birbaşa şəxsi təşəbbüsü ilə hazırlanan hərbi kadrlar ölkəmiz müstəqillik qazandıqdan sonra Milli Ordumuzun komandan heyətini təşkil etmişdir. Bu gün hər birimiz qürurla deyirik ki, artıq güclü ordumuz var. Ordumuz istənilən an işğal altındakı torpaqlarımızı azad etməyə hazırdır. Ölkəmizin iqtisadi qüdrəti artdıqca ordumuzun da gücü çoxalır. Bu gün Azərbaycanın hərbi xərclərinin Ermənistanın dövlət büdcəsinə bərabər olması faktı da bu mənada ən yaxşı nümunə hesab edilə bilər. Prezident İlham Əliyevin “iqtisadi, hərbi üstünlüyümüz və hərbi potensialımızın ən yüksək səviyyədə olması bizə imkan verir ki, istənilən anda torpaqlarımızı işğaldan azad edək” deməsi əslində Azərbaycan Silahlı Qüvvələrinin gücünə və qüdrətinə olan inamı ifadə edir.

Tarix sübut edib ki, peşəkar ordusu olan xalqın müstəqilliyi də əbədidir. Azərbaycanda da ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, müdafiə sənayesi potensialının artırılması istiqamətində atılan addımlar ordumuzun gücünə əlavə güc qatır. Odur ki, millətimizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özünütəsdiq imkanı olan Azərbaycan ordusu xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın silahlı qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır. Bununla yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin müasir Azərbaycana yadigar qoyduğu bu dəyərli sərvət - milli ordumuzun potensialı, artan müdafiə xərclərimiz bizi əsas məqsədimizə, işğal altında qalan torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır.

Respublika Günü bütün dünya azərbaycanlılarının fəxarət və qürur tarixidir. 28 May - əlamətdar tarixi gün münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edir, dövlətimizə əbədi müstəqillik və suverenlik, millətimizə isə bu yolda əzmkarlıq və güc birliyi arzulayırıq. Çətinliklə əldə edilmiş müstəqilliyimizi bütün vasitələrlə qoruyaq və möhkəmləndirək!

**Nəsib MİRİYEV,**
**Zəngilan Rayon Təhsil Şöbəsinin müdiri.**